MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ
*Dayanıqlı inkişaf, cild 5, № 1, 2025*

UOT 331.5; 331.56/57

# YAŞIL İQTİSADİYYATIN MƏŞĞULLUĞU ARTIRMASI POTENSİALI VƏ ONA TƏSİRİ ÜZƏRİNDƏKİ MANEƏLƏR

[1,2]**Təranə Əhməd qızı Süleymanova,** [1,3]**Arifə Carı qızı Nəsibova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]tarana.suleymanova@mdu.edu.az
[3]arifa.nasibova@mdu.edu.az
**https://doi.org/10.30546/SJSD.2025.5.1.018**

***Xülasə:*** *Yaşıl iqtisadiyyat, təbii sərvətləri qorumaq, ətraf mühitin davamlılığını təmin etmək və eyni zamanda iqtisadi inkişafı təşviq etmək məqsədi güdən bir yanaşmadır. Bu yanaşma həm təbii resurslardan səmərəli istifadə etməyi, həm də karbon emissiyalarını azaldaraq iqtisadiyyatı inkişaf etdirməyi hədəfləyir. Yaşıl iqtisadiyyatın əsas prinsiplərindən biri, həm ətraf mühitin qorunması, həm də iş yerlərinin yaradılmasıdır. Bu tədqiqatda yaşıl iqtisadiyyatın məşğulluğa təsiri, inkişaf potensialı və ona təsiri üzərindəki maneələr kimi məsələlər araşdırılmışdır.*
***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, məşğulluq, işsizlik, təkrar emal, iqtisadi inkişaf, yaşıl şəhər və yaşıl iş*

## Giriş

Yaşıl iqtisadiyyat, təbii sərvətlərin qorunmasını və ekoloji davamlılığı təmin etməklə, iqtisadi inkişafın artırılmasını hədəfləyən bir yanaşmadır. Bu iqtisadi model, təbii resurslardan səmərəli, qənaətlə istifadəsi və ətraf mühitə zərəli təsirlərin minimuma endirilməsini təşviq edir. Yaşıl iqtisadiyyatın əsas məqsədi, iqtisadi artım ilə ətraf mühitin qorunması arasında balans yaratmaqdır.

Məşğulluq, bir şəxsin əmək bazarında fəaliyyət göstərərək əmək haqqı qazanması və işçi olaraq xidmət verməsi vəziyyətidir. Məşğulluq, iqtisadiyyatın və cəmiyyətin dayanıqlı inkişafı üçün vacib bir göstəricidir. İşsizliyin azaldılması, sosial rifahın yüksəlməsi və iqtisadi artım üçün çox mühüm əhəmiyyət kəsb edir.

Yaşıl iqtisadiyyat, təkcə ekoloji və iqtisadi faydalarla məhdudlaşmır; o, eyni zamanda genişləndirilmiş iş imkanları yara bilir. Bərpa olunan enerji sektoru, enerji səmərəliliyi, yaşıl kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat və infrastruktur layihələri kimi sahələrdə yeni iş yerləri (yaşıl işlər) yaranır.

**Yaşıl iqtisadiyyat və məşğulluq arasında əlaqə**

Yaşıl iqtisadiyyat, məşğulluğun artırılmasına birbaşa təsir göstərir. Enerji səmərəliliyi bərpa olunan enerji qaynaqları, və s. bu kimi ekoloji layihələr daha çox sayda insanların əmək bazarına daxil olmasına imkan verir. Bununla yanaşı, yaşıl iqtisadiyyatın inkişafı, həmçinin işçilərin bacarıqlarının artırmasına və yeni iş növləri ilə tanış etdilməsinə imkan yaradır. Eyni zamanda təbii resursların, ekoloji tarazlığın qorunması və bərpa edilməsi həm iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə, həm də sosial rifahın yüksəlməsinə səbəb olur.

Yaşıl iqtisadiyyat bir neçə sektoru əhatə edir ki, bunlar da məşğulluq yaratmağa töhfə verir. Bu sahələr arasında əsasən aşağıdakılar önə çıxır:

1. **Bərpa olunan enerji qaynaqları:** Yaşıl iqtisadiyyat, bərpa olunan enerjinin mənbələrinə, məsələn, günəş, külək, su və bioyanacaq enerjisinə yönəlir. Bu enerji növləri, karbon emissiyasını azaltmaq və ətraf mühitin qoruması məqsədilə daha davamlı və təmiz enerji alternativləri təklif edir.
2. **Enerji səmərəliliyi** (resurslardan səmərəli və qənaətli şəkildə istifadə)**:** Evlərdə, sənaye müəssisələrində və nəqliyyat sahələrində enerji səmərəliliyi artırmaq üçün yeni texnologiyalardan istifadə məşğulluq yaradır. Enerji təchizatını optimallaşdıran, enerji təchizatının idarə edilməsində ixtisaslaşmış işçilər tələb olunur. Ənənəvi iqtisadiyyatda təbii resurslarından istehsal prosesində hədsiz istifadə, ətraf mühit çirklənməsi və iqlim dəyişikliyi kimi problemlərə səbəb olur. Yaşıl

iqtisadiyyat isə təbii resursların daha effektiv istifadə edilməsi və təkrar emalı ilə bu problemləri həll etməyi hədəfləyir.

3. **Yaşıl kənd və qida istehsalı:** Yaşıl kənd təsərrüfatı metodlarının əsas məqsədi ətraf mühitə zərər vermədən məhsul istehsalını həyata keçirməkdir. Bu metod yeni iş imkanları yaradır. Təsərrüfat işçiləri, kənd təsərrüfatı mühəndisləri və ekoloji fermerlər kimi peşə sahələri ortaya çıxır.

4. **Tullantıların idarə edilməsi və təkrar emal:** Yaşıl iqtisadiyyatın digər əsas aspekti, tullantıların təkrar emalı və yenidən istifadə proseslərinə yönəlik təşəbbüslərin artmasıdır. Bu, həm resursların və tullantıların səmərəli istifadəsini, həm də ətraf mühitin tullantılardan qorunmasını təmin edir. Qaytarılabilir materiallardan istifadənin artması və tullantıların azaldılması məqsədilə təkrar emal sənayesi böyüyür. Bu sahə, həmçinin texnologiya, logistika və idarəetmə sahələrində yeni məşğulluq imkanları təmin edir.

5. **Yaşıl nəqliyyat və infrastruktur:** Velosiped yolları, elektrikli nəqliyyat vasitələri, yaşıllıqların artırılması kimi sahələr də məşğulluğu dəstəkləyir. Bu sahədə həm yeni avtomobil texnologiyalarının inkişafı, həm də infrastruktur işlərinin tikintisi və təmiri sahələrində iş imkanları yaranır.

6. **Yaşıl infrastruktur və yaşıl şəhərlər:** Yaşıl iqtisadiyyat, ekoloji dəyərlərə uyğun yaşayış və infrastruktur sistemlərini inkişaf etdirir. Bu, enerji səmərəli binaların tikilməsi, yaşıllıq zonalarının artırılması, və ekoloji nəqliyyat sistemlərinin təşviqi kimi tədbirləri özündə əks etdirir.

**Yaşıl iqtisadiyyatın məşğulluğa təsiri**

Yaşıl iqtisadiyyat, həm iqtisadiyyatın inkişafını, həm də məşğulluğun artırılmasını təmin edən əhəmiyyətli bir sahədir. İqtisadi modelin məqsədi təbii resursları səmərəli istifadə etmək, karbon emissiyalarını azaltmaq və ətraf mühiti qorumaqla yanaşı, yeni iş imkanları yaratmaqdır. Yaşıl iqtisadiyyatın inkişafı müxtəlif sahələrdə yeni iş sahələri açılır, bu da həm fərdi, həm də sosial inkişafı təşviq edir. Bu səbəbdən, yaşıl iqtisadiyyat yalnız ətraf mühitin qorunmasına deyil, həm də dayanıqlı məşğulluğun artırılmasına xidmət edir.

Yaşıl iqtisadiyyatın məşğulluğa təsiri bir neçə cəhətdən nəzərdən keçirilə bilər. Bu təsirlərdən ən önəmlisi **yeni iş imkanlarının yaranmasıdır.** Yaşıl iqtisadiyyatın müxtəlif sahələrində inkişaf, yeni ixtisaslar və iş imkanları yaradır. Yaşıl iqtisadiyyatın tətbiqi ilə bağlı hərəkətə keçilən layihələr, həm sənaye, həm də xidmət sektorlarında iş yerləri yaradaraq məşğulluq səviyyəsini artırır.

**İşçilərin bacarıqlarının inkişafı da** yaşıl iqtisadiyyatın məşğulluğa təsirlərindən biridir. Yaşıl iqtisadiyyatın inkişafı ilə yanaşı, yeni texnologiyalar və proseslərə uyğun gəlmək üçün işçilərin bacarıqlarını artırmağı tələb edir. Bu, təlim və təhsil proqramlarının artırılmasını, işçilərin daha çevik və müasir texnologiyalara uyğunlaşmasını təmin edir. Məşğulluğu artırmaq və iş bazarını inkişaf etdirmək üçün təhsil və təlim təşəbbüslərinin təşviq edilməsi vacibdir. Bu həm işçilərin peşə bacarıqlarını artırır, həm də iş tapma şanslarını yüksəldir.

**Eyni zamanda ekoloji tələblərə uyğun iş yerlərinin yaradılması məşğulluq səviyyəsinin artmasına da** səbəb olur. Yaşıl iqtisadiyyat təkcə yeni iş imkanları yaratmaqla qalmır, həm də mövcud iş yerlərinin ətraf mühitin qorunmasına uyğunlaşdırılmasına yol açır. Məsələn, ənənəvi sənaye sahələrində çalışan işçilər, enerji səmərəliliyi və ətraf mühitin qorunması ilə bağlı təlimlər alaraq yaşıl iqtisadiyyat sahələrinə keçir.

Yaşıl iqtisadiyyat yeni iş imkanları yaradaraq iqtisadi inkişafı sürətləndirə bilər. Bu, xüsusən də məşğulluq səviyyəsinin aşağı olduğu bölgələrdə əhəmiyyətlidir. Yaşıl iqtisadiyyatın təşviqi, həmçinin əhalinin sosial rifahını artırmağa kömək edir.

Yaşıl iqtisadiyyat, xüsusən təbii sərvətləri bol olan və ya ətraf mühitin qorunmasına ehtiyacı olan regionlarda məşğulluğu artırmaq üçün əhəmiyyətli bir potensiala sahibdir. Həmçinin, yaşıl iqtisadiyyat layihələri kiçik və orta sahibkarlıq fəaliyyətlərini də dəstəkləyərək, yerli iqtisadiyyatın inkişafına kömək edir.

**Məşğulluğun artırılması üçün strategiyalar**

Yaşıl işlər ətraf mühiti birbaşa qoruya və ya mənfi ətraf mühitə təsirləri minimuma endirməyə, resurslara qənaət və ekosistemləri bərpa etməyə çalışa bilər.

Yaşıl iqtisadiyyatın inkişafını təşviq etmək üçün dövlətlər vergi təşviqləri, subsidiyalar və stimullaşdırıcı proqramlar tətbiq etməlidir. Yaşıl infrastruktur layihələri və bərpa olunan enerji sahələrində dövlət dəstəyi iş yerlərinin yaradılmasını sürətləndirə bilər.

İşçilərin yaşıl iqtisadiyyatın tələblərinə uyğun bacarıqlara sahib olması üçün peşə təhsilinə və təlimlərə böyük diqqət yetirilməlidir. Bu sahələrdə ixtisaslaşmış təhsil proqramları və təcrübə mübadiləsi proqramları vacibdir.

Yaşıl iqtisadiyyatın inkişafı yerli icmaların və kiçik və orta bizneslərin dəstəklənməsini tələb edir. Bu bizneslərə vergi güzəştləri və maliyyə dəstəyi göstərmək, onların iş yerləri yaratmaq potensialını artırır.

**Yaşıl iqtisadiyyatın məşğulluğa təsiri üzərindəki maneələr**

Yaşıl iqtisadiyyatın inkişafı, təbii resursların qorunması və ətraf mühitin davamlılığına töhfə verir, eyni zamanda iqtisadiyyatda artıma və yeni iş yerlərinin yaranmasına da şərait yaradır. Lakin bu prosesin qarşısında müəyyən çətinliklər və maneələr də mövcuddur. Yaşıl iş yerlərinin genişləndirilməsi üçün əsas maneələr aşağıdakı sahələrdə ümumiləşdirilmişdir: mədəni maneələr, iqtisadi maneələr, idarəetmə və təşkilati maneələr, texnoloji və texniki maneələr, sosial və davranış maneələri və s.

Yaşıl iqtisadiyyatın məşğulluğa müsbət təsirini maksimuma çatdırmaq üçün bu maneələrin aşılması vacibdir.

Yaşıl iqtisadiyyatın inkişafı və tətbiqi üçün davamlı və geniş investisiyalar tələb olunur. Bərpa olunan enerji layihələri, yaşıl infrastruktur və ekoloji təmiz texnologiyalar yüksək ilkin maliyyətlərə malikdir. Bu cür layihələrə sərmayə qoyulması, xüsusilə inkişaf etməkdə olan ölkələrdə və ya az inkişaf etmiş regionlarda, iqtisadi çətinliklər və maliyyə çatışmazlıqları səbəbindən ləngiyə bilər. Bu vəziyyət, yeni iş yerlərinin yaradılmasını və iqtisadi artımı təxirə sala bilər.

Eyni zamanda, yaşıl iqtisadiyyatın inkişafı yeni texnologiyalar və ixtisaslar tələb edir. Əksər hallarda, ənənəvi sənaye sahələrində çalışan işçilər yaşıl iqtisadiyyatın tələblərinə uyğun yeni bacarıq və biliklərə malik deyil. Bu, mövcud işçilərin təlim və təhsil proqramlarına cəlb edilməsini tələb edir. Lakin bu təlimlər üçün lazımi infrastruktura və resurslara sahib olmaq, xüsusilə inkişaf etməkdə olan ölkələrdə, böyük bir maneə ola bilər. Bunun nəticəsində işçilər yaşıl iqtisadiyyatın tələblərinə uyğunlaşmada çətinliklər yaşaya bilər, bu da məşğulluğun artırılmasını ləngidə bilər.

Yaşıl iqtisadiyyatın inkişafı üçün tələb olunan texnologiyalar yüksək dərəcədə müasir və mürəkkəb ola bilər. Bu texnologiyaların tətbiqinə keçid, xüsusilə inkişaf etməkdə olan ölkələrdə və ya texnoloji baxımdan geridə qalmış bölgələrdə çətinliklər yaradacaqdır. Məsələn, bərpa olunan enerji sistemlərinin qurulması, ekoloji nəqliyyat vasitələrinin istehsalı və digər yaşıl texnologiyalar yüksək texniki bilik və infrastruktur tələb edir. Bu texnologiyaların tətbiqi, hər bir regionda eyni sürətlə həyata keçirilə bilməz və bu, məşğulluğun inkişafına mənfi təsir göstərə bilər.

Yaşıl iqtisadiyyatın inkişafı, davamlılıq və ətraf mühitin qorunması məqsədlərinə nail olmaq üçün düzgün qanunvericilik və dövlət siyasətlərinin mövcudluğunu tələb edir. Əgər dövlətlər yaşıl iqtisadiyyatı təşviq edən qanun və qaydaları qəbul etmirlərsə, bu sahələrdə iş yerlərinin yaradılması yavaşlayar. Vergi güzəştləri, subsidiyalar, yaşıl texnologiyaların istifadəsi üçün maliyyə dəstəyi kimi tədbirlər, yaşıl iqtisadiyyatın inkişafını sürətləndirə bilər. Lakin bu dəstəyin olmaması və ya qeyri-kafiliyi, yaşıl iqtisadiyyatın məşğulluğa təsirini əngəlləyən əsas amillərdən biridir.

Yaşıl iqtisadiyyatın inkişafı, bəzi regionlarda və təbəqələrdə daha çox fayda təmin edə bilər, digərlərində isə bu faydalar əksik ola bilər. Məsələn, yaşıl texnologiyalar və bərpa olunan enerji sektoru, daha inkişaf etmiş infrastruktur və maliyyə resurslarına sahib bölgələrdə daha sürətlə inkişaf edə bilər. Bu, ətraf mühitin qorunmasına və məşğulluğun artırılmasına şərait yaratsa da, digər bölgələrdə qeyri-bərabərlik yarada bilər. Sosial və iqtisadi qeyri-bərabərlik, iş imkanlarının qeyri-bərabər paylanmasına səbəb olaraq yaşıl iqtisadiyyatın məşğulluğa təsirini məhdudlaşdıra bilər.

Yaşıl iqtisadiyyatın inkişafı ənənəvi sektorların – xüsusilə, fosil yanacaq və ağır sənaye sahələrinin azaldılmasını tələb edir. Bu sektorlar, çoxsaylı iş yerləri yaradır, lakin eyni zamanda ekoloji problemlər yaradır. Yaşıl iqtisadiyyata keçid, bu sahələrdə çalışan işçilər üçün işsizlik riski

yarada bilər və bu da sosial narazılıq və iqtisadi çətinliklərə səbəb ola bilər. Ənənəvi sənaye sektorlarının müqaviməti və dəyişikliklərə uyğunlaşmamağı, yaşıl iqtisadiyyatın məşğulluğa müsbət təsirini zəiflədə bilər.

Qlobal iqtisadi böhranlar, ticarət müharibələri və siyasi qeyri-müəyyənliklər yaşıl iqtisadiyyatın inkişafını və məşğulluğa təsirini məhdudlaşdıra bilər. Dünya iqtisadiyyatında baş verən dəyişikliklər və maliyyə böhranları, yaşıl iqtisadiyyat layihələrinin həyata keçirilməsini yavaşlada bilər. Bu, yeni iş yerlərinin yaradılmasını gecikdirə bilər və ya bu sahələrə investisiyaların azalmasına səbəb ola bilər.

**İşğaldan azad olunmuş rayonlarda yaşıl iqtisadiyyatın məşğulluğu artırması potensialı**

İşğaldan azad edilmiş ərazilərdə yaşıl iqtisadiyyatın məşğulluğa təsiri, bu ərazilərin bərpası və inkişafı məqsədilə həyata keçirilən davamlı və ekoloji cəhətdən təmiz iqtisadi siyasətlərin əhəmiyyətini vurğulayır. Yaşıl iqtisadiyyat, ekosistemin qorunmasını, enerji səmərəliliyini, bərpa olunan enerji mənbələrini, ekoloji təmiz istehsal proseslərini və təkrar emalı əhatə edən bir yanaşmadır. Bu yanaşmanın işğaldan azad edilən ərazilərdə məşğulluğa təsiri müxtəlif aspektlərdən qiymətləndirilə bilər.

Yaşıl iqtisadiyyatın inkişafı, bu ərazilərdə müxtəlif sektorlarda yeni iş yerlərinin açılmasına səbəb ola bilər. **Bərpa olunan enerji sektoru** (günəş, külək və hidro enerji), yeni enerji stansiyalarının qurulması, bu sahədə mütəxəssislərin işə götürülməsi ilə bağlı yeni iş imkanları yaradır. **Təbii resursların qorunması** və **ekoloji turizm** sahələri də inkişaf etdirilə bilər, bu da mütəxəssis və işçi ehtiyacı yaradır. **Kənd təsərrüfatı** sahəsində ekoloji təmiz məhsulların istehsalı və təkrar emal işləri də məşğulluğu artırır.

Yaşıl iqtisadiyyatın tətbiqi üçün yerli əhalinin ekoloji cəhətdən dayanıqlı texnologiyalara, enerjiyə qənaət etməyə və ətraf mühitin qorunmasına dair yeni bacarıqlar əldə etməsi zəruridir. Bu, həm də təhsil və təlim imkanlarının artırılmasını tələb edir.

Yaşıl texnologiyalar, ətraf mühitin mühafizəsi sahəsində təlimlər, eləcə də kənd təsərrüfatı və ekoloji turizm üzrə proqramlar yerli əhalinin ixtisaslaşmasını təmin edir. Bu sahədəki təlimlər gənc və qadın işçiləri iş bazarına daxil etməklə məşğulluq səviyyəsini yüksəldir.

İşğaldan azad edilmiş ərazilərin bərpası, yaşıl infrastruktura, təmiz və dayanıqlı binalara investisiya yatırılmasını tələb edir. Bu sahədəki layihələr yaşıl binaların inşası və su təmizləmə sistemləri üçün yeni iş yerləri yaradacaq. Yaşıl infrastruktur layihələri (yol tikintisi, enerji səmərəliliyi üzrə texnologiyalar) yerli işçiləri məşğul edir və bununla yanaşı, ərazinin sosial-iqtisadi inkişafına da müsbət təsir göstərir.

Yaşıl iqtisadiyyatın bir sahəsi də kənd təsərrüfatı və qida təhlükəsizliyidir. Ekoloji təmiz və davamlı kənd təsərrüfatı üsullarının tətbiqi  orqanik məhsul istehsalı, bərpa olunan kənd təsərrüfatı texnologiyaları (suvarma sistemləri, torpağın qorunması) yeni iş imkanları və yerli iqtisadiyyatın inkişafına dəstək verir. Ekoloji olaraq, davamlı kənd təsərrüfatı təcrübələri yerli əhalinin məşğulluğunu artıran, eyni zamanda regionun qida təhlükəsizliyini təmin edən layihələrdir.

İşğaldan azad edilmiş ərazilərdə ekosistemlərin bərpası, yaşıl iqtisadiyyatın bir hissəsi olaraq, həm ekoloji, həm də iqtisadi baxımdan əhəmiyyətlidir. Ekosistemin bərpası ilə bağlı müxtəlif layihələr: meşələrin bərpası, torpaq eroziyasının qarşısının alınması, vəhşi təbiətin qorunması kimi işlər yerli əhalinin məşğulluğunu artırır, xüsusilə kənd yerlərində iş imkanları yaradır. Eyni zamanda, bu cür ekosistem bərpası layihələri, turizmin inkişafı ilə əlaqəli yeni iş imkanları doğurur.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsi igid Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq, iqtisadi reinteqrasiya tədbirləri həyata keçirilir ki, bu istiqamətdə strateji baxışlardan biri də həmin ərazilərdə yaşıl enerji zonasının yaradılmasıdır. Yaşıl enerji zonası enerji tələbatının yaşıl enerjidən (bərpa olunan enerji mənbələri) maksimum istifadəsi ilə ödənildiyi və enerji dəyər zəncirində ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən yaşıl texnologiyaların tətbiq edildiyi sahə kimi təsnif edilir. 2021-ci il fevralın 22-də Energetika Nazirliyi ilə BP arasında genişmiqyaslı karbonsizləşdirilmiş, inteqrasiya olunmuş enerji və nəqliyyat sistemləri, eləcə də Azərbaycanın şəhər və rayonlarında bərpa olunan enerji layihələri

üçün potensialın və tələb olunan şərtlərin qiymətləndirilməsi məqsədilə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandum Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, rəqabətqabiliyyətli enerji bazarının yaradılması, təmiz ətraf mühitin və ölkənin yaşıl inkişaf prioritetlərinin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsi, eləcə də BP-nin xalis sıfır emissiyaları elan etməsi kontekstində bağlanıb. Memorandum təmiz enerji layihələri, aşağı karbonlu nəqliyyat, yaşıl binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim sahələrində əməkdaşlıq imkanlarının araşdırılmasını nəzərdə tutur. həllər, inteqrasiya olunmuş tərəfdaşlıqlar və inteqrasiya olunmuş və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin inkişafı. Bundan əlavə, 3 iyun 2021-ci il tarixində BP ilə Cəbrayıl və Zəngilanda 240 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisinə dair İcra Sazişi imzalanıb. Müqaviləyə əsasən, BP-nin tikməyi planlaşdırdığı elektrik stansiyası layihəsinin müvafiq iqtisadi və texniki təhlili aparılacaq və yekun qərar qəbul ediləcək.

Yuxarıda deyilənlər onu deməyə əsas verir ki, Azərbaycanın gələcək iqtisadi inkişafı ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin reabilitasiyası üzrə səylərin gücləndirilməsi ilə sıx bağlı olacaqdır.

Milli Prioritetlərə uyğun olaraq ətraf mühitin mühafizəsi yaxşılaşdırılacaq, bitki örtüyü sürətlə bərpa edilərək artırılacaq, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin olunacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə yaşıl iqtisadiyyatın tətbiqi, yalnız ətraf mühitin qorunmasına deyil, həm də sosial və iqtisadi baxımdan çoxsaylı faydalar gətirə bilər. Bu sahədə inkişaf layihələri yerli əhalinin məşğulluğunu artıraraq, ekoloji təmiz və dayanıqlı iş imkanları yaradır, eyni zamanda ərazilərin sürətli bərpasına töhfə verir. Yaşıl iqtisadiyyatın genişləndirilməsi, işğaldan azad edilən ərazilərin uzunmüddətli sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcək.

**Nəticə**

Yaşıl iqtisadiyyat, həm ətraf mühitin qorunması, həm də iqtisadi inkişafın artırılması baxımından əhəmiyyətlidir. Bu yanaşma, yalnız ətraf mühiti qorumağa deyil, həm də yeni iş imkanlarının yaradılmasına yönəlmişdir. Yaşıl iqtisadiyyatın məşğulluğa təsiri müxtəlif sahələrdə yeni iş yerlərinin yaranmasına səbəb olur və sosial rifahın artırılmasına kömək edir. Dövlət və özəl sektor arasında sıx əməkdaşlıq və yeni təhsil imkanlarının yaradılması, bu sahənin inkişafını daha da sürətləndirə bilər. Yaşıl iqtisadiyyatın potensialı, qlobal miqyasda iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf etdirmək və yeni iş imkanları yaratmaq üçün böyük bir fürsət təklif edir.

Yaşıl iqtisadiyyat və məşğulluq bir-birini tamamlayan və gücləndirən anlayışlardır. Yaşıl iqtisadiyyatın təşviqi ilə yeni iş imkanlarının yaradılması, həm iqtisadiyyatda dayanıqlı inkişafı təmin edir, həm də sosial rifahın artmasına kömək edir. Bu səbəbdən, yaşıl iqtisadiyyatın inkişafı və işçilərin yaşıl bacarıqlara yiyələnməsi, həm müasir dövrün tələblərinə cavab verir, həm də davamlı və inklüziv bir iqtisadiyyatın qurulmasına töhfə verir.

Yaşıl iqtisadiyyatın məşğulluğa müsbət təsirini artırmaq üçün bir sıra maneələr mövcuddur. İnvestisiya çatışmazlığı, bacarıqların uyğunlaşdırılması, texnologiyaların tətbiqi, qanunvericilik dəstəyi və sosial qeyri-bərabərlik kimi problemlər, yaşıl iqtisadiyyatın inkişafını yavaşlada və məşğulluğa təsirini əngəlləyə bilər. Bu maneələrin aşılması üçün dövlətlər, özəl sektor və cəmiyyətin birgə səyləri tələb olunur. Yaşıl iqtisadiyyatın potensialını tam olaraq reallaşdırmaq və məşğulluğu artırmaq üçün uyğun siyasətlərin hazırlanması, təhsil və təlim proqramlarının gücləndirilməsi, texnoloji yeniliklərin yayılması və maliyyə dəstəyinin təmin edilməsi vacibdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

2. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamı.

3. V.Ə.Qasımlı, R.Z.Hüseyn, R.F.Hüseynov, R.B.Həsənov, C.R.Cəfərov, A.B.Bayramova. Yaşıl iqtisadiyyat. Bakı, Azprint, 2022, 280 s.

4. V.Ə. Qasımlı, Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr. / V.Qasımlı, Z.Vəliyev, M.Hümbətov, Ş.Hacıyev, G.Nəsibova /Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı, 2014, 144 s

5. F.Abbaszadə, A.Satıcı, Yaşil iqtisadiyyat perspektivləri: struktur yanaşmalarin və fiskal siyasətin təhlili. Bakı: Iqtisadi Islahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2023, s. 25-32.

## EMPLOYMENT GROWTH POTENTIAL AND IMPACT OF GREEN ECONOMY

**T.A.Suleymanova, A.J.Nasibova**
Mingachevir State University

***Abstract:*** *Green economy is an approach that aims to protect natural resources, ensure environmental sustainability and promote economic development at the same time. This approach aims to use natural resources efficiently and develop the economy by reducing carbon emissions. One of the main principles of green economy is both environmental protection and job creation. This study will discuss the impact of green economy on employment and its potential.*

***Keywords:*** *green economy, employment, unemployment, recycling, economic development, green city and green work*

## ПОТЕНЦИАЛ ЗАНЯТОСТИ ЗЕЛЕНОЙ ЭКОНОМИКИ И БАРЬЕРЫ ЕГО ВОЗДЕЙСТВИЯ

**Т.А.Сулейманова, А.Дж.Насибова**
Мингячевирский государственный университет

***Резюме:*** *Зеленая экономика – это подход, направленный на сохранение природных ресурсов, обеспечение экологической устойчивости и в то же время содействие экономическому развитию. Этот подход направлен как на эффективное использование природных ресурсов, так и на развитие экономики за счет сокращения выбросов углекислого газа. Одним из основных принципов зеленой экономики является одновременно охрана окружающей среды и создание рабочих мест. В этом исследовании будет обсуждаться влияние зеленой экономики на занятость и ее потенциал.*

***Ключевые слова:*** *зеленая экономика, занятость, безработица, переработка отходов, экономическое развитие, зеленый город и зеленый труд*

**Elmi redaktor: i.e.d., prof. E.Sadıqov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 16.04.2025**
**Çapa qəbul edilib: 23.04.2025**